# DAN ULDUZU

**Güney Azərbaycan Milli Hərəkətinin Əsasları**



**Bu yazı Güney Azərbaycan milli hərəkətinə, xüsusən içəridə vətən-millət adına var gücü ilə mücadilə edən qəhrəmanlarımıza təqdim olunur.**

**Mətn və başlığı dəyişmədən, hər cür dijital və çap şəklində yayımlanması və paylaşımı sərbəstdir.**

**İLGAR ULUSOY**

**01/02/2025**

İçindəkilər

Giriş ........ 1
HƏDƏF ........ 4
Tək Amaç: Güney Azərbaycan Milli Dövləti ........ 5
Milli Dövlət Nədir? ........ 6
Uluslararası Hukukta Milli Dövlət ........ 7
Hədəfdən Caymamaq ........ 9
İLKƏLƏR ........ 11
Türkçülük ........ 14
Azərbaycançılıq ........ 16
Özgürlükçülük ........ 18
Ədalətçilik ........ 20
Əxlaqçılıq ........ 22
Xalqçılıq ........ 24
Yenilikçilik ........ 26
Təşkilatçılıq ........ 28
STRATEGiYA ........ 30
Strategiya nədir? ........ 31
Plan və Taktika ........ 31
Mücadilə Strategəyası ........ 32

# Giriş

Güney Azərbaycan, tarixin hər çağında öz milli dövləti sayəsində alnı açıq bir millət olaraq var olmuşdur. Azərbaycan Türkləri hər zaman insani dəyərlər, özgürlüklər və ədalətli hakimiyyət qonusunda bölgənin öncü milləti və qonşu xalqlar üçün işıq və ümid qaynağı olubdur. Ancaq son yüz ildə, Güney Azərbaycanın dövlətinin, İran dövlətçiliyi adına qəsb edilib istismar olunması, millətimizə böyük zərərlər vermiş, milli sərvətlərini talan etmiş və gündən-günə maddi və mənəvi baxımdan yoxsulluğa və fəlakətə sürükləmişdir. Eyni zamanda Azərbaycan Türklərinin ədalətli və insansevər dövlətçiliyinin yox olması, bölgənin digər xalqlarının da ümid və işığının sönməsinə səbəb olmuşdur. Necə ki yüz ildir, onlar da bizim kimi, savaşlar, ədalətsizliklər və zülm altında əzilib, dünya mədəniyyətindən, rifahdan və şərəfli yaşam haqqından çox uzaqlaşmışlar.

Fars faşizmi və imperialist güclərin Türk düşmənliyi və bəzi Güney Azərbaycanlı aydınların keçmişdəki yanlış hərəkət və düşüncələri, Güney Azərbaycanın fəlakətinin ən önəmli səbəblərindəndir. Keçmiş yüz ilin təcrübəsinə baxdığımızda, aydınlarımızın daha əvvəl getdikləri yolların çoxunun yanlış nəticələrə səbəb olduğunu görə bilərik. İran adına və İranın demokratikləşməsi yolunda verilən mücadilə və fədakarlıqların hamısı, Güney Azərbaycan xalqının, xoşbəxtliyi yerinə fəlakətinə səbəb olmuşdur. O fəlakətlərə səbəb olan yanlış düşüncə və planlarla davam edərək, o fəlakətlərdən qurtulmaq olmaz. Buna görə də, bugün Güney Azərbaycan milli hərəkətinin hədəfi, İran hökumətini dəyişdirib başqa bir hökumət qurmaq yerinə, yalnız və yalnız öz milli dövlətimizi yenidən qurmaq olmuşdur.

Dövlətimizi işğal edib, bütün imkanlardan məhrum etsələr də, bir millət olaraq var olmağa davam edib, hər fürsətdə, milli dövlətimizi yenidən qurmağa çalışmışıq. Hətta siyasi, sosial və beynəlxalq sahələrdə, özümüzü qurtaracaq yeni imkanlar da yaratmışıq. Bugün bu imkanlar sayəsində, Güney Azərbaycan milli hərəkəti, yəni millətimizin qurtuluş savaşı, hər zamankindən daha çox uğura yaxındır, çünki:

- Milli hərəkətimiz, mədəni və ədəbi sahələrdən başlasa da bu gün millətimizin oyanışı sayəsində, siyasi və milli bir direniş və mübarizəyə çevrilib, beynəlxalq siyasətə daşınıbdır.

- Güney Azərbaycan xalqının çoxu, özəl mədəniyyətə sahib olduğunu anlayıb və sahib olduğu mədəniyyət və vətəndə, müstəqilliyə layiq bir millət olduğu qənaət və siyasi şüuruna yetişibdir.

- Artıq Güney Azərbaycan öz Türklüyünə sarılır. Bu gün Türkçülüğün çırpınan ürəyi Təbrizdir, Güney Azərbaycandır.

- Güney Azərbaycanda çoxlu sayda milli düşünür və aydın yetişib. Onların çoxu Güney Azərbaycanda yaşayır və milli hərəkətimizə yön verir. Eyni zamanda dünyanın dörd bir yanında, düşüncə mərkəzlərində yer alıb, milli hərəkətimizin nəzəri əsaslarını dərinləşdirib, beynəlxalq siyasətə daxil edirlər.

- Güney Azərbaycan artıq irançılığı və İran dövlətçiliyini mənimsəmir və onu öz dövləti kimi qəbul etmir. Millətimiz fikirdə və düşüncədə, İran dövlətçiliyindən qopub, öz taleyini Türklük və Türk dünyasında görür.

- Artıq milli mücadiləmizin bayrağı təsbit olunub, Güney Azərbaycan milli fəallarının çoxluğu onu qəbul edib və xalqımız tərəfindən qəbul edilir.

- İran dövlətçiliyi ən gücsüz dövründədir. İçəridə xalq tərəfindən dəstəyini və ideoloji bağını itirib, dünyada isə qanunsuz bir terrorçu dövləti statusundadır. Eyni zamanda sanksiyalar, maliyyə və hərbi gücünü zəiflədibdir.

- Quzey Azərbaycan Respublikasının uğurları bir örnək kimi gözlər önündədir və millətimiz, Azərbaycan Türk dövləti altında daha rifahlı, daha azad və daha güclü olacağına inanır.

- Türk dünyasının birləşməsi və güclənməsi və Türk Dövlətləri Təşkilatının quruluşu, millətimizə güvən verir və aydın gələcəyə ümidləndirib həvəsləndirir.

Bu səbəblərə görə, daha təsirli, cəsarətli və yerə basan addımlarla, strategiya və yol xəritəmizi bəlirləyib, ən qısa zamanda Güney Azərbaycanı qurtarıb, milli dövlətiimizi qurmalıyıq. Yol xəritəmizi bəlirləmək üçün, ortaq hədəfimiz və ilkələrimiz şəffaf şəkildə müəyyən olmalıdır. Hədəfimiz və ilkələrimiz müəyyən olmasa, heç bir fürsəti düzgün dəyərləndirə bilməyəcəyik və hara gedəcəyini bilməyən bir dənizçi kimi, heç bir küləyin bizə faydası olmayacaq. Hədəfsiz və vizyonsuz bir Mücadilə, boşuna zaman keçirməkdir, hərəkətsiz və eyləmsiz düşüncə isə yalnız bir arzu və xəyaldır. Ortak hədəfimiz bəlli olarsa ona çatmaq üçün ortaq strategiyalar və taktikaləri planlayıb, vizyonlu bir şəkildə hərəkətə keçib, dünyanı dəyişdirə bilərik.

Strategiyalar hədəfə çatmağın yolu və rotasıdır, ilkələr isə doğru yolda olduğumuzu göstərən işıqlardır. Hədəfimizə çatmaq üçün, rotamız (strategiyalarımız) varsa, doğru yöndə irəliləmək və yoldan sapmamaq üçün, yolumuzu işıqlandıran dəniz fənəri, kompas, radar və ulduzlara, yəni ilkələrə ehtiyacımız vardır.

# HƏDƏF

## TƏK AMAÇ: GÜNEY AZƏRBAYCAN MILLI DÖVLƏTI

Dövlət qurmaq insanlığın ən böyük başarısı, Türk töre və ənənələrinin təməlidir. Dövlət, bir yurd və vətəndə yaşayan insanların ən üst idarəetmə vasitəsidir. Bir toplumu birləşdirib, millət edən sözləşmə və mexanizmin adıdır. Dövlət, bəlli bir vətəndə, millətin siyasi birliyindən doğan hüquqi bir varlıqdır, yəni millətin iradəsinin təcəllisidir. Toplumu təmsil edən bir dövlət varsa insanlar biz olar, yəni millət olar, yoxsa bir-birindən ayrı qalıb, başqa millətlərin ayaqları altında yox olar. Milli dövlət olmasa, milli birlik də olmaz, milli birliyi olmayan toplumun da faeliyyət qabiliyyəti olmaz.

Güney Azərbaycan Türklərinin, sosial və iqtisadi sahələrdə azadlığı və inkişafı üçün, öncə Güney Azərbaycanın özü azad olub, milli dövlətini qurmalıdır. Məhkum millətin ixtiyarı heç vaxt özündə olmaz. Onun taleyini hakim millətlərin nümayəndələri təyin edər, onlar da, öz millətlərinin çıxarlarını güdər. Yəni milli dövləti olmayan bir xalqın sosial azadlığı, demokratiyaya çatması və iqtisadi inkişafı mümkünsüzdür. Biz dövlətsiz qaldığımız son yüz ildə, yaşadığımız böyük fəlakətlər, dərdlər, həqarətlər və ədalətsizliklərin, dövlətsizlikdən başımıza gəldiyini anlayıb, dərsimizi almışıq. Və bilirik ki, bir millətin azadlığını qoruya biləcək tək güc, onun milli dövlətidir. Ona görədir ki, bu fəlakətlərdən qurtulub, mürəffəh, azad və şərəfli yaşamaq üçün, bizi təmsil edən və bizi biz edən bir milli dövlət istəyirik. Şübhəsiz, vətənimiz Azərbaycan üçün, millətimizin rifahı və xoşbəxtliyi üçün, həyatımız, namusumuz, şərəfimiz, gələcəyimiz və inandığımız müqəddəslərimiz üçün yəni hər şeyimiz üçün, bütün duyğularımızla, ayıqlığımızla və gücümüzlə, Güney Azərbaycan milli dövlətini qurub qorumaq üçün mübarizə edirik və edəcəyik. Bunu da bir seçim kimi deyil, insanlıq vəzifəmiz bilirik. Bu vəzifəmizi yerinə yetirmək üçün, ilkələr və strategiyalarımızı diqqətlə bəlirləyib, tək hədəfimiz, yəni milli dövlətimizi qurmaq üçün mübarizə etməliyik. Bizim üçün ən böyük təhlükə, hədəfimizin çox yüksək yəni tam bağımsız bir milli dövlət olması və onun üçün çırpınmaq deyil, hədəfimizin çox aşağı və kiçik çıxarlar olmasıdır. İçimizdə böyük hədəf yoxsa, dünyanın bizə verə biləcəyi heç bir şey yoxdur. Böyük hədəfimiz

olsa və ona israr edib onun üçün mübarizə etsək, mümkünsüzlər mümkün, mümkünlər ehtimal və ehtimallar qəti olacaq.

## Milli Dövlət Nədir?

Milli dövlət bir millətin birliyinin və iradəsinin təcəllisidir. Milli dövlət bir millətin yaşaması və var olması üçün ən böyük sərvətidir. Başqa millətlərin istismari altında olan bir millət, yalnız istismardan qurtulup, öz milli dövlətinə quraraq, ən yüksək xeyri, ən yüksək kəmalı və ən yüksək səadəti əldə edə bilər. Milli dövlət elə bir işıqdır ki, onun qarşısında zəncirlər əriyər, taxt-taclar yanar və millətin əsarəti üçün qurulmuş bütün quruluşlar yıxılar. Milli dövlət toplumu millət edər, millət də onu dövlət edər, birinin varlığı üçün obirinin olması şərtdir.

İnsan toplumları dövlət otoriteti olmadan yaşaya bilməz. Toplumda özgürlüğün, bərabərliyin və ədalətin sağlanması və qorunması, ancaq və ancaq milli dövlətin qurulması və milli suverenliyin təmin edilməsi ilə mümkündür. Bir dövlət, qanunlarını və planlarını icra etmək üçün, daxili və xarici otoritetə və suverenliyə sahib olar. Daxili suverenliyə sahib olan bir dövlətin, yalnız öz torpaqları və vətəndaşları içində otoriteti olar. Yəni öz torpaqları içində, qərarlar alıb, başqa bir dövlət və ya quruluşun icazəsinə ehtiyac olmadan icra edə bilər. Xarici ya da milli suverenlik isə, bir dövlətin beynəlxalq aləmdəki yeri və müstəqil bir varlıq olaraq fəaliyyət göstərməsini təmin edər. Müstəqil və suveren dövlət, yalnız xarici suverenliyini qazanmış bir dövlətdir.

Ən böyük şərəf tam bağımsızliq və istiqlal olsa da milli fəallarımızın bir qismi, Güney Azərbaycan milli dövləti üçün, bəzi sistemlərdə olduğu kimi, daxili suverenliyin yetərli və əlçatan olduğunu düşünürlər. Ancaq milli fəalların çoxunluğu, Güney Azərbaycan və dünyadakı vəziyyət və başqa təcrübələrə dayanaraq, tək qurtuluş yolumuzu, tam müstəqil və suveren bir Güney Azərbaycan dövlətində görürlər. Bu düşüncələrin ikisi də, Azərbaycan mərkəzli olduqca, milli hərəkətimizin içində və tək amacımızın doğrultusundadır. Amma Güney Azərbaycan yerinə İran mərkəzli düşünülürsə, yəni İranı federal, konfederal və ya daha

demokratik bir dövlətə çevirmək kimi bir amac varsa, ona Güney Azərbaycan milli hərəkəti deyilməz. Güney Azərbaycan milli hərəkətinin İran və İranda yaşayan başqa millətlərin taleyini təyin etmək kimi bir hədəfi yoxdur. Zatən buna nə haqqı vardır nə də gücü yetər. Milli hərəkətimizin amaci Güney Azərbaycan dövlətini qurmaqdır, istər İranın qalanı parçalansin, federal olsun, olduğu kimi qalsın, daha pis olsun ya da daha yaxşı olsun. Bunların heç biri, məqsədimizə təsir etməz və dəyişdirməz. Əlbəttə bu, Güney Azərbaycanın bölgə xalqlarından ayrılmaq istədiyi anlamına gəlməz. Biz bölgəmizdəki bütün xalqlarla barış içində, azad və bərabər yaşayıb, dayanışmaq istəyirik. Bu da daha sağlam bir platformada, yəni bizi təmsil edən Güney Azərbaycan dövləti sayəsində ola bilər. Bugün, Qaşqaylar, Xorasan türkləri və Türkmənlər kimi doğma qardaşlarımızla bərabər, qonşularımız olan kürdlər, lurlar, ərəblər, giləklər və hətta farslarla birgə, İran adlanan ölkənin fərqli zindanlarında məhbusuq. Bu zindanlardan qurtulmaq hər kəsin haqqıdır. Ancaq biz zindanda olduqca, nə başqa zindanlardakı qardaşlarımızı və qonşularımızı qurtara bilərik, nə də onlara bir faydamız ola bilər. Önce özümüzü qurtarmalıyıq ki, qardaş və qonşu xalqlara da yardım əlimiz və gücümüz olsun.

## ULUSLARARASI HUKUKTA MILLI DÖVLƏT

Güney Azərbaycan milli hərəkətinin əsas istəyi, qəsb olunmuş və istismar olunmuş dövlətçiliyini geri almaqdır. Bizim heç kimin vətənində ya da dövlətində gözümüz yoxdur. Biz, min illərdir babalarımızın idarə etdiyi, amma son yüz ildə qəsb olunmuş öz dövlətimizi yenidən qurmaq istəyirik. Siyasi müstəqillik istəyimizin qanuniliyinin ana qaynağı da budur. Bununla bərabər, Güney Azərbaycan milləti demokratik haqlara dayanaraq, öz taleyini təyin etmə haqqına da sahibdir. Eyni zamanda yüz ildir Güney Azərbaycan Türkləri, İran dövləti çərçivəsində, demokratik və milli haqlarının təmin olunması üçün, davamlı Mücadilə edibdir. Amma bütün İran hakimiyyətləri, bu barışçıl və demokratik istəklərə qarşı, amansız və nisbətsiz şiddət, cinayət və qətliamlar ediblər. Artıq İran dövləti çərçivəsində, Güney Azərbaycanın

demokratik haqlarının təmin olunmasının mümkünsüz olduğu, sübut olunub. Buna görə də, Güney Azərbaycana, siyasi müstəqillikdən başqa bir yol qalmayıbdir. İran dövlətinin Azərbaycana qarşı qətliamlar və insanlıqdan kənar cinayətləri və millətimizin yüz illik mücadiləsi, hərəkətimizin digər meşruiyət qaynağıdır.

Bir milli hərəkət, milli mücadilə edib, milli dövlətini qurar, sonra müstəqillik elanı və başqa ölkələrin rəsmiyətə tanıması ilə son hədəfinə çatar. Bu mərhələlərin hər birinin fərqli strategiyaları və hüquqları vardır.

- Milli mübarizə və qurtuluş savaşı, hər millətin insani haqqıdır və dünyanın bütün azade insanları, qurtuluş mücadiləsi edən mübarizlərə hörmət göstərər. Terror və insanlıq cinayətlərinə qarışmadan, hər cür silahsız ya da silahlı qurtuluş savaşı, bütün beynəlxalq quruluşlarda və hüquqda, qəbul edilmiş bir haqqdır.

- Özünü təmsil edən milli hökumətini qurub, idarəsini öz əlinə keçirib, öz torpaqlarında suverenliyini təmin etmək, bir millətin ən demokratik haqqıdır və öz taleyini təyin etmə haqqının ən əsas təcəllisidir. Öz torpaqlarında otoritesini təmin etmiş və vətəndaşlarının insani haqlarına hörmətli yanaşan bir milli hökumət, müstəqillik elan etsə də-etməsə də, başqa ölkələr tərəfindən rəsmiyətə tanınsa da-tanınmasa da, beynəlxalq hüquqda, bir dövlət hüququna malikdir.

- Hər dövlət, milli məclis və millətinin onayı ilə müstəqillik elan etmə haqqına sahibdir.

- Müstəqillik elan etmiş bir dövlət, fərqli şərtlərdə, başqa ölkələr və təşkilatlar tərəfindən rəsmiyətə tanına bilər. Beynəlxalq hüquqda, bu mövzuda hər nə qədər qeyri-müəyyənlik və mübahisə olsa da, bir ölkənin başqa ölkəni rəsmiyətə tanıma mövzusu, tamamilə real siyasətlə əlaqəlidir. Güney Azərbaycanın müasir və inkişaf etmiş mədəniyyəti, insani gücü,

zəngin coğrafiyası, geosiyasi mövqeyi və qardaş ölkələrin dəstəkləri, bu mərhələdən də keçə biləcək potensialın zəmanətidir.

Biz Güney Azərbaycan milli hərəkəti olaraq birinci mərhələ, yəni milli mücadilə və qurtuluş savaşı mərhələsindəyik. Bugün, tək hədəfimiz bir sonrakı mərhələyə çatmaq, yəni milli dövlətimizi qurmaqdır. Bütün mücadilə və enerjimizi, ona sərf etməliyik. Bütün strategiya və taktikalərimiz, bizi ona doğru bir addım aparmalıdır.

## HƏDƏFDƏN CAYMAMAQ

Mücadilə sırasında gündəlik olaylara qapılıb tək amacımızı unutmamalıyıq. Milli hərəkətin hədəfi, Güney Azərbaycan dövlətini yenidən qurmaqdır. Atdığımız hər addım və söylədiyimiz hər söz, bizi bu hədəfə yaxınlaşdırmalıdır. Güney Azərbaycan milli hərəkəti, İran rejiminin içəridə və xaricdə olan müxalifəti ilə eyni hədəfi güdmür. Onlar İran və İran dövlətçiliyini qoruyub, daha güclü etmək üçün, rejimin dəyişməsini istəyirlər. Onlar yalnız hökumətə qarşıdırlar, irançılıq və fars faşizminə deyil. Milli hərəkətimiz isə, bu ədalətsizliklər və fəlakətin səbəbini, ilk baıda, İran dövlətçiliyi və onun quruluş fəlsəfəsi olan fars faşizmində ardından da bugün faşizmin təmsili olan islam cumhuriyətində görür. Bizi düşmənimiz, İran dövlətinin tamamıdır və Güney Azərbaycanin tək qurtuluş yolu, İran dövlətindən qurtulub öz dövlətini qurmaqdan geçər. Elə buna görədir ki İrana hakim olan hər hansı bir hukumət, nə qədər gücsüz, bacarıqsız və meşruiyətsiz olsa, bir o qədər yaxşıdır və Güney Azərbaycan milli hərəkətinin uğuru və milli dövlətimizin qurulmasının xərci də o qədər az olar. Irana Hakım olan rejimin yıxılması ya da dəyişməsi, tək başına bizi fəlakətdən qurtarmaz. Onun yerinə gələn hər hökumət, yenə də irançılıq faşizmi ilə, Azərbaycanı əzməyə çalışıb, ondan daha faşist və ədalətsiz ola bilər.

Güney Azərbaycanı, milli dövlətə layiq bir millət kimi qəbul etməyən müxalifət təşkilatlar və başçıları ilə ortaq plan qurub, bərabər hərəkət etmək mənasızdır və milli hərəkətimizə zərər verər. Hər kəslə anlaşmaq

və orta yol tapmaq, hər zaman doğru bir strategiya deyil. Quzeyə getmək istəyən biri, eyni zamanda güneyə gedə bilməz ya da güneyə gedən biri ilə ortaq yol planı qurub hərəkətə keçə bilməz.

Mücadiləmizin irəliləməsi üçün lazım olan yerlərdə, Türk dünyası təşkilatları, uluslararası təşkilatlar, hətta İrandakı başqa millətlərin təşkilatları ilə, ilkələrimiz və hədəfimiz doğrultusunda taktiki koordinasiyalar sağlana bilər. Amma heç bir qurum, quruluş, təşkilat, partiya və s. nə qədər əhatəli olsa da, Güney Azərbaycanın taleyi və torpaqları mövzusunda, mərkəzçi müxalifət və başqa etniklərin təşkilatları ilə müzakirəyə girə bilməz. Çünki nə onlar Güney Azərbaycan millətinin hamısını təmsil edir, nə də mərkəzçi müxalifət və başqa etniklərin təşkilatları öz xalqlarını təmsil edir. Heç biri də mənsub olduqları xalqların tərəfindən qərar verəcək yetki və yetkiyə sahib deyillər. Yalnız Güney Azərbaycanı təmsil edən bir dövlət olduğunda, o dövlət, başqa dövlətlər ilə müzakirəyə girə bilər və Güney Azərbaycanın torpaqları və taleyi ilə əlaqəli qərar ala bilər. Bunun üçün milli dövlətimiz qurulana qədər, Güney Azərbaycan milli hərəkətinə mənsub təşkilatlar və milli fəallar, yalnız və yalnız, Güney Azərbaycan milli dövlətinin qurulmasına odaqlanmalıdır və ona çatmaq üçün mücadilə etməlidir.

# İLKƏLƏR

İlkələr, milli hərəkətimizin tartışmasız qəbul edilən ana düşüncəsi, öncü prinsipləri və usullarıdır. Bu ilkələr Güney Azərbaycan milli hərəkətinin əsasını təşkil edir və hərəkətimizin hədəfinə çatmasında önəmli bir rol oynayır. Onlar duruşumuzun kökü, xarakterimizin onurğası, doğru yolu tapmağın pusulası və mücadiləmizin qanunlarıdır. İlkələr, ulduzlar kimi yolumuzu göstərib, milli hərəkətimizi bəlirsizliklərdən və qarmaşalardan qurtarıb, düzəni və uyumu sağlar. Ən çalxantılı zamanlarımızda belə, ilkələrimizə dayanaraq, hərəkət etməliyik və ilkələr söz qonusu olduöğunda ödün vermədən dağ kimi durmalıyıq.

İlkələr, alacağımız qərarların qanunlarıdır, hər hərəkətimiz və davranışımız, onlara dayalı və hədəfimizə doğru olmalıdır. Yəni Türklüyə, Azərbaycana və xalqımıza dayanaraq, ədalət, özgürlük və əxlaqi dəyərləri diqqətə alaraq, təşkilat ruhuna sarılaraq, yenilikçi planlarla, milli hədəfə doğru hərəkətə keçib, mücadilə etməliyik. Milli dövlət andımız, ilkələr isə öncəliklərimizdir. Öncəliklər, fərqli insanlar və ya təşkilatlarda, fərqli dərəcədə ola bilər. Sol düşüncəli biri üçün ədalətin daha çox önəmi olar, liberallar üçün özgürlüğün, Türkçülər üçün Türklüyün, vətənpərvərlər üçün Azərbaycanın, mühafizəkarlar üçün əxlaqın. Bunların hamısı, digər ilkələrə qarşı olmayıb milli hədəfimiz doğrultusunda olduqca, normaldır və hərəkətimizin içində dəyərləndirilir. Ancaq bu ilkələr bir bütündür və yolumuzu işıqlandıran ulduzlardır. Güney Azərbaycan yerinə İran və irançılıq üçün mücadilə etmək ya da ilkələrimizin hər hansı birinə qarşı olmaq ya da onlardan birini hədəf yerinə qoyub, yalnız onun üçün mücadilə etməyin adı Güney Azərbaycan milli hərəkəti deyil. Buradan yola çıxaraq, sağ, sol, liberal, mühafizəkar, feminist, laik, seküler və s. düşüncə və məktəbləri dəyərləndirmək üçün, Güney Azərbaycan**ın** olmaq ilə Güney Azərbaycan**lı** olmağı ayırmalıyıq. Güney Azərbaycan**ın** sağı, solu, liberali, mühafizəkarı, laiki, seküleri, feministi, təbiətçisi və s., Güney Azərbaycan milli hərəkətinin əsl sahibləridir. Amma doğum yeri səbəbi ilə azərbaycan**lı** olub hətta türk dilini çox yaxşı bilən, İran solçusu, İran sağçısı, İran Türkçüsü, İran liberali, İran laiki, İran mühafizəkarı və s.,

Güney Azərbaycan milli hərəkətindən deyil, hətta milli hərəkətimizə ən böyük zərər verənlərdəndirlər. Çünki onlar millətimizin haqlı tələblərinə qarşı, faşistlərin əlindəki ən güclü çomaqlardır. Güney Azərbaycan üçün ürəyi çırpınan, ilkələrimizə qarşı olmayan, Güney Azərbaycanın milli dövlətinin qurulması üçün mücadilə edən hər kəs və təşkilat, Güney Azərbaycan milli hərəkətinin bir parçası və sahibidir. Güney Azərbaycanda qurulacaq dövlətin sağ, sol, liberal, laik və s. düşüncə əsasında idarə olunmasını istəmək də hər Güney Azərbaycan milli fəalının təbii haqqıdır.

İlkələrimizin birini hədəf kimi göstərib, Güney Azərbaycan milli hərəkətinin əsl hədəfindən və digər ilkələrindən keçmək, bizi həm gerçək hədəfimizdən, həm də ilkələrimizdən uzaqlaşdırar və millətimiz üçün də heç bir faydası olmaz. Güney Azərbaycan milli hərəkəti, yalnız demokratiya üçün mücadilə edən, yalnız ədalət üçün mücadilə edən, hətta yalnız rejimi yıxmaq üçün mücadilə edən bir hərəkət deyil. Güney Azərbaycan milli hərəkəti, demokratik, çağdaş və insani ilkələrə dayanan bir qurtuluş mücadiləsidir, demokratiya, ədalət ya da bərabərlik şovaliyəsi deyil. Biz İranda və ya hər hansı bir coğrafiyada olan hökumətlərin ədalətli və daha demokratik olmasını dəstəkləyirik. Amma onun üçün savaşmırıq, elə bir davamız və hədəfimiz də ola bilməz. Elə bir dava, yalnız milli dövlətimiz qurulduqdan sonra ola bilər. Milli dövlətimiz olduqdan sonra, öz dövlətimizin daha demokratik və ədalətli olması üçün, müasir partiyalar qurub, mücadilə edəcəyik.

## TÜRKÇÜLÜK

Türkçülük, Bulud Qaraçorlu'nun dediyi kimi "Özgə çırağına yağ olmaq bəsdir, doğma ellərimiz qaranlıqdadır" deyib, nuru öz elinə və xalqına yüksəltməkdir. Türkçülük daxili və xarici düşmənlərə qarşı yalnız qalmış və Türk olduğu üçün əzilmiş, Güney Azərbaycan Türklərini müdafiə edib qurtuluş yolunu işıqlandırmaqdır. Türkçülük ilkəsi, özünə kimliyini sevmək, qorumaq və müdafiə etməkdir, yəni özünə inanmaqdır. Türkçülük Güney Azərbaycanin bir sosial həqiqətdir, onda nə işğalçılıq var nə də ırqçılıq. Onda özünə güvən var, ümid var və gələcək var. Türkçülük başqa xalqlara qarşı kin və qərəz duyğusu dəyil, Türk xalqına dərin sevgi və bağlılıqdır. Türkçülük, Güney Azərbaycan Türklərinin qurtuluşu və özgür, mürəffəh və modern bir gələcəyin arzusu və duyğusudur.

Bir Türkçü, milli qəhrəmanlarına hörmət edər, amma qəhrəman olmayana da qəhrəman deməz. Türklüyə xor baxıb, Türk dili və mədəniyyətini öz çıxarları üçün alçaldan və yox sayanları, bağışlamaz və onları bağışlayanları da düşmən sayar. Türkçülüyün ən böyük vəzifəsi, Türklüyə xidmətdir, bunun başında da öz ətrafındakılara Türklüyü sevdirmək gəlir. Yorulmadan bezmədən, Türk dili və mədəniyyətinin gözəlliklərini anladıb, onun ən böyük düşməninin də, İran dövləti və İrançılığın olduğunu açıqlamaqdır. Türkçülük alçaq könüllü olmaqdır, bir Türkçü, bəyənilmək üçün deyil, vəzifə bildiyi üçün Türklərə xidmət edər. Özünü Yüksəltmək üçün deyil, Türklüyün yüksəlməsi üçün hər cür fədakarlığa hazır olar.

Dilimiz, tariximiz, törəmiz, inancımız, adət və ənənələrimiz bizi başqa xalqlardan ayırıb, kimliyimizi və mənsub olduğumuz mədəniyyəti yəni Türklüyümüzü tanımlar. Özünü səmimi olaraq Türk mədəniyyətinə bağlı hiss edən hər kəs Türkdür. Bu anlayışdan yola çıxıb, bütün Güney Azərbaycan Türklərini düşünüb, onların xoşbəxtliyi üçün çalışmalıyıq. Assimilasiya nəticəsində Türk dilini az bilən, hətta heç bilməyən insanlarımız da bu zalım sistemin qurbanlarıdır, onların da haray haray mən Türkəm deməyə və onun xoşbəxtliyini yaşamağa haqları vardır.

Biz Güney Azərbaycan milli fəalları, Türk olduğumuz üçün və Güney Azərbaycan Türklərinin içindən çıxmış insanlar olduğumuz üçün, Türklərin yüksəlməsi və haqlarının hər şeydən üstün tutulması yolunda çalışmağı, müqəddəs bir vəzifə bilirik. Türkçülüyə dayanaraq, millətimizin milli şüurunu yüksəldib, siyasallaşdırıb və öz taleyini təyin etmək üçün hərəkətə gətirmək, ən böyük vəzifəmizdir. Bu doğrultuda Türkçə danışacağıq, Türkçəni hər zaman hər şeyin üstündə tutacağıq, hər işimizdə Türk ruhuna və Türk özəlliyinə uyğun və Türk millətinə faydalı olma şərtinə diqqət edəcəyik.

# AZƏRBAYCANÇILIQ

Biz Türklərin millət və vətən sevgisi, Allahın bizə verdiyi bir hədiyyədir. Belə alovlu vətən sevgisi hər millətdə olmaz. Vətənpərvərlik duyğusunu yaşamayan millətlər, tarixdə yox olmağa məhkumdur. Vətən bir millətin evidir və onu sevmək, ana-baba sevgisi qədər təbiidir. Azərbaycan, torpağının qara bağrında sıra dağlar kimi duran və tarix boyu onun üçün canını fəda edən Türklərin vətənidir. Azərbaycançılıq da Azərbaycan Türklərinin vətənsevərlik duyğusunun adıdır. Azərbaycançılıq, vətənin daşına, dağına, torpağına can fəda etməkdir. Bağına, bostanına, hətta quru çölünə aşiq olub, bu vətənin ətrafını və gözəlliklərini qorumaqdır. Dilinə, dininə və düşüncəsinə baxmadan bu torpaqlarda yaşayan bütün insanları sevməkdir. Öz vətənini, bayrağını və milli dövlətini canından və malından üstün tutmaqdır. Azərbaycançılıq, həm vətən üçün yaşamaqdır, həm də vətən üçün ölməkdir. Azərbaycanın azadlığı, ancaq vətən yolunda hər cür fədakarlığa hazır olan vətənsevər insanlar, yəni Azərbaycançı insanlar sayəsində təmin olunacaqdır.

Əsarətdən qurtulmaq istəyən öncə vətənini qurtarmalıdır. Biz Güney Azərbaycan milli hərəkəti olaraq, öz vətənimizi işğaldan qurtarıb milli dövlətimizi qurmaq üçün mücadilə edirik. Biz Azərbaycançıyıq və Güney Azərbaycan milli dövlətini qurub, onun bölünməz bütövlüyünü qorumağa çalışırıq. Qurulacaq milli dövlətimizin aparıcı milləti və böyük əksəriyyəti olan Türklərin milli varlığı və birliyini qorumağa çalışırıq. Bununla yanaşı vətənimizdə yaşayan etnik azlıqların haqlarını qorumağı da vətən borcumuz bilirik. Bu torpaqlarda yaşayan hər kəsin yaşamaya, maddi və mənəvi varlığını qorumaya və inkişaf etməyə haqqı vardır. Dilinə, dininə və düşüncələrinə baxmayaraq vətənimizdə yaşayan bütün insanlarımızı qoruyub, onlara, mürəffəh, özgür və şərəfli yaşam sunmağı boynumuzun borcu bilirik. Onun üçün heş bir zaman torpaqlarımızın və vətəndaşlarımızın heç bir bölümünün, faşistlər, terroristlər və aşirət ağalarının əlində əsir buraxmayacayiq ya da girov olmasına icazə verməyəcəyik.

Azərbaycan səcdəgahımız, Türkçülük isə tacımızdır. Tariximizdə Türkçülük və Azərbaycançılıq, Rusçuluq və Farsçılığa qarşı müdafiə hərəkəti olmuşdur. Bugün Azərbaycançılığı və Türkçülüyü bir-birinə zidd göstərməkdə də, yenə şübhəsiz İran və Rusiyanın rolu vardır. Türklüyü ələ alıb Azərbaycanı inkar etmək ihanətdir, bunun tərsi də eyni dərəcədə qəflət və ihanətdir.

Vətənin o tayı bu tayı olmaz, Tanrı bizə vahid bir Azərbaycan veribdir. Bu vətənin hər qarışını sevib qorumalıyıq, yəni bütövçü olmalıyıq. Azərbaycançılıq vətənimizin ayrı düşmüş parçalarının birləşmə sevdasıdır və ona mane olacaq hər söz və hərəkətdən çəkinməkdir.

# Özgürlükçülük

Özgürlük çörəkdən daha dadlı, günəşdən daha gözəldir. Xoşbəxtliyin sirri və tarixin itirilməyən dəyəridir. Kim olduğunu bilib, olduğun kimi yaşamaqdır. Özgürlük yoldan çıxmaq deyil, istədiyin yola getməkdir, yəni öz beyninlə düşünüb, doğru olduğuna inandığın şeylər üçün mücadilə etməkdir. Özgürlük bir bütündür, ona şərt qoyulmaz və tamamilə qazanılana qədər heç qazanılmamışdır. Milliyət özgürlüğü, cinsiyyət özgürlüğü, inanc özgürlüğü, düşüncə özgürlüğü və hətta heyvanların özgürlüğü, bir bütündür və bir-birinə bağlıdır. Onların hamısı və hamı üçün təmin olunana qədər, heç kim özgür deyildir. Özgürlük bir haqq deyil, bir insanlıq vəzifəsidir. Kiçik çıxar və vədlərə aldanıb özgürlüğünün tamı ya da bir qismini tərk edən insan, əslində insanlığından və vəzifələrindən əl çəkmişdir.

Hər ayrı-seçkilik özgürlüğə bir saldırıdır və fəlakətlərin əsas səbəbidir. Ayrı-seçkiliklərin qaynağını bilmədən özgürlük olmaz və nə qədər mücadilə etsək də, onun səbəb olduğu fəlakətlərdən qurtulmaq olmaz. Güney Azərbaycan milləti, Türk olduğu üçün, ayrı-seçkiliklərə, təhqirlərə və dışlanmalara məruz qalıb, fəlakətlərə düşübdür. Bunun üçün Güney Azərbaycan Türklərinin, əsarət zəncirlərindən qurtuluşu və özgürlüğü, ancaq Türklüyünə sarılıb, milli dövlətini qurub, özü özünü idarə etmək ilə mümkündür. Milli dövlətimiz olmayana qədər və özümüz özümüzü idarə etməyənə qədər, azad ola bilməyəcəyik. Ayrı-seçkiliklər, təhqirlər və dışlanmalar davam edəcək və fəlakətlər içində yaşayıb, özgür olmadığı üçün məhv olan başqa millətlər kimi, məhv olacağıq.

Bizim özgürlük mücadiləmiz, keçmişdən gələn ən dəyərli xəzinəmizdir. Biz bir ömür təhqir və fəlakət içində yaşayıb ölmək yerinə, şərəf və ləyaqətimiz ilə özgürlüğümüz üçün savaşaraq bu yolda ölməyi tərcih edərik. Amma bunu da bilirik ki, bütün güc və iradəsi ilə özgürlük mücadiləsi edən bir millətin qarşısında heç bir güc dayana bilməz. Güney Azərbaycan milli fəalları, özgürlük və ədalət mücadilələrində, kölə olmağı və başqalarını kölə etməyi qəbul etməyən, şərəfli bir bayrağın daşıyıcılarıdırlar. Onlar, uğrunda ölünəcək qədər dəyərli və

haqlı davamızı, cəsarət, ürəklilik, atılqanlıq və ilkələrimizə sarılaraq, hədəfə doğru aparmağı, bir insanlıq vəzifəsi bilən qəhrəmanlarımızdır.

Yüz ildən çoxdur Güney Azərbaycanı boş vədlərlə aldadıb məşğul ediblər. Gəlin birlikdə İran hökumətinə qarşı savaşaraq onu islah edib ya da dəyişdirib, daha demokratik edək, sonra Azərbaycanın payını da alarıq deyiblər. Yüz ildən çoxdur ən böyük dərdimiz yəni özgürlüğümüzün oğurlandığını, dövlətsizliyimizi və işğal altında olduğumuzu unudub, kiçik dərdlərlə uğraşıb boğulub qalmışıq və hər dəfə qazandıq dediyimizdə görmüşük ki, əslində onlar qazanıb biz məğlub olmuşuq. Artıq böyük davamız, yəni Güney Azərbaycan üçün milli dövlət qurma və qurtuluş mücadiləsinin zamanı çoxdan gəlmişdir. Biz Güney Azərbaycan milli hərəkəti olaraq bir daha kiçik dərdlər uğruna amacımızdan keçməyəcəyik. Bir daha heç bir taktiki və kiçik başarılar uğruna dövlət qurma hədəfimiz və ilkələrimizdən yəni kimliyimiz, özgürlüğümüz, Türklüyümüz və vətənimizdən keçməyəcəyik. Görəcəyimiz iş başarısız olacaqsa olsun. Başarısızlıq ölümcül dəyil, önəmli olan dəvam etmə cəsarətini göstərməkdir. Haqlı mücadiləmiz, bir neçə yanlış və başarısız iş ilə məğlub olmaz. Biz başarısız olduğumuzda deyil, vaz keçdiyimizdə məğlub olarıq.

## ƏDALƏTÇILIK

Ədalət insanın doğal haqqı, hüzurun açarı və mədəniyyətin ilk şərtidir. İnsan ruhu və insanlıq tarixinin hər zaman ən əsas dəyərlərindən biri olan ədalət, bir toplumun nizamını sağlar və insanların bir-birinə hörmətli və ədalətli olmasını təşviq edər. Ədalət insan haqlarını qoruyub və haqsızlıqların qarşısını alaraq, toplumu bir arada tutub, daha güclü edər. Ədalət yalnız sərvət və maddi şeylərlə əlaqəli deyil, yaşamın bütün sosial və mədəni imkanlarının da dəngəli paylaşımıdır. Bir dövlət ədalət üzərində qurular və xəzinəsi ədalətdir.

Ədalətin əsası haqqaniyyət, ərdəm, hiss və vicdandır. Güney Azərbaycan milli hərəkətinin ədalət ilkəsi bu mənəvi və duyğusal kökə dayanaraq xalqımızın və dünyanın vicdanına, yəni insanların içindəki ədalət duyğusuna səslənir. İran dövlətçiliyi, qurulduğundan bəri, Güney Azərbaycan Türklərinə, sistematik şəkildə soyqırım siyasəti aparır. Millətimizin dilini, mədəniyyətini və bütün mənəvi varlıqlarını təhqir edib təzyiq altında tutub, insani haqlarını yox sayır. Güney Azərbaycanın torpaqlarını parçalayıb, milli kimliyimizi silmək istəyir. Tarixi əsərlərimizi, ətrafımızı və təbiətimizi qəsdən məhv edir. Bəlli siyasətlərlə, Azərbaycanın inkişafına mane olaraq, xalqımızı işsiz, yoxsul və çarəsiz vəziyyətə gətirib, öz torpaqlarından sürgün etməyə çalışır. Bu sistematik aparteidə qarşı etiraz edənləri də, ağır işgəncə və həbs cəzaları ilə susdurmağa çalışır. Bu zülm və ədalətsizliklərdən, ancaq bizi təmsil edən bir milli dövlətin qurulması ilə qurtula bilərik və ondan başqa heç bir çarəmiz yoxdur. Artıq başqa yolların hamısını keçmiş yüz ildə təcrübə etmişik. Güney Azərbaycan milli hərəkəti, ədalətsizliklərdən canı yanmış, Türk olduğu üçün təhqir olunmuş və iqtisadi fəlakətlərə sürüklənmiş insanların, haqq və ədalət davasıdır. Bu hərəkət nə zülm, nə də mərhəmət, yalnızca ədalət istəyir.

Yüz illərin ədalətsizliklərini Güney Azərbaycandan qaldırmaq üçün həm dağıdıcı ədalətə, həm də düzəldici ədalətə ehtiyacımız vardır. Dağıdıcı ədalət, bərabərlik əsasında olar və hər kəsin vəzifəsi və zəhmətinin qarşılığını almasını təmin edər. Ancaq düzəldici ədalət sayəsində, var

olan pozuntular da düzəlib, həqiqi bərabərlik sağlanar. Düzəldici ədalət, keçmişdəki varlıq və haqq bölgüsündəki ədalətsizliklərin təlafi edilməsini sağlar. Məsələn yüz ildən çoxdur Azərbaycanın basqı altında tutulan mədəniyyəti və dili, başqa dillər və mədəniyyətlərlə bərabər vəziyyətə gələnədək, düzəldici ədalətə tabe tutulmalıdır. Eyni şəkildə Tehran, Qəzvin, Həmədan, Bicar və Xəzriyanı şəhərlər kimi Güney Azərbaycanın daha çox assimilasiyaya məruz qalmış bölgələrinin Türkləri üçün də, düzəldici ədalət təmin edilməlidir. Qadınların sosial və iqtisadi vəziyyətləri, kişilərlə bərabər səviyyəyə gələnə qədər, düzəldici ədalət tətbiq edilməlidir. Milli hərəkət olaraq, təşkilatlarımızda və fəaliyyətlərimizdə qadınlara düzəldici ədalət çərçivəsində, pozitiv ayrı-seçkilik sağlanmalıdır. Mərkəzində, idarəsində, əsasında və içində qadınların olmadığı bir siyasi mücadilə, mücadilə deyil.

Güney Azərbaycan milli hərəkəti olaraq, mücadiləmizdə, qərarlarımızda və fəaliyyətlərimizdə hər zaman ədalətli olmalıyıq. İdarə etdiyimiz təşkilat və quruluşlarda, vəzifələri insanların əməkləri və öhdəliklərinə görə bölməliyik, dostluq və yaxınlığa görə deyil. Milli fəalları və təşkilatları tənqid edərkən ədalətli olmalıyıq. Var olan vəziyyəti nəzərə alaraq tənqid etməliyik, ideallara dayanaraq deyil. Yalnız mücadilə edən və iş görən milli fəalları və təşkilatları deyil, parlaq fikirləri olan amma heç bir iş görməyənləri də sorğuya çəkməliyik. Rəy bildirməklə tənqidi bir-birindən ayırmalıyıq. Hər insan hər mövzuda rəyini bildirmək haqqına sahibdir, amma tənqid etmək üçün o mövzuda bilikli ya da təcrübəli olmalıdır. Tətbiqi mümkün olmayan səbəblərə dayanaraq rədd etməyin adı tənqid deyil. Təpənin başında oturub savaşı izləyib, sonra aşağı enib, diri qalanların başına vurmağın adı hər nə olsa da tənqid heç deyil.

## ƏXLAQÇILIQ

Əxlaq bir toplumda yaxşı-pisi, doğru-yanlışı və uyğun-uyğunsuzu bir-birindən ayıran dəyərlər və etiklərdir. Əxlaq, toplumsal təcübələrdən və vicdanımızdan qaynaqlanan və toplumun, adət, ənənə və inanclarına girmiş, dayanışma ruhudur. Əxlaq hər kəsin etdiyi şeylər deyil, hər kəsin etməsi gərəkən şeylərdir. Əxlaq millətləri çökməkdən qurtarıb, qoruyan doğal bir qurtarıcıdır. Əxlaq və ərdəm, qərarlarımız və əməllərimizin rəhbəri, doğru idarənin əsası, yaxşıları əldə etməyin gücü və milli ruhun zinətidir. Əxlaqçılıq, öz xalqına məsuliyyət hissi duyub, ediləcək doğru ilə, edilməyə haqqın olanlar arasındakı fərqi bilməkdir. Yəni şəxsi mənfəətlər ardınca getmək yerinə, millətimizin və milli hərəkətin çıxarlarına adanmaqdır.

başarı, əxlaqdan sonra gələr. Milli hərəkətimiz, içdən gələn bir sevgi, əxlaq və Rasionallıq ilə idarə olunmasa, çöküb yox olar. Milli hərəkətimizin irəliləməsi, yalnız böyük eyləmlər və təşkilatların qurulmasına bağlı deyil, milli fəallarımızın əxlaqi dəyərlərinə də bağlıdır. Çünki bir hərəkətin dəyəri, onu müdafiə edən insanların dəyəri qədər olar. Böyük davalar, şəxsiyyətli və əxlaqlı insanların çiyinlərində zəfərə yetişər. Güney Azərbaycan milli hərəkəti, yanlış və uyğunsuz davranışlardan uzaq duran, əxlaqlı və etik insanların hərəkətidir. Əxlaq və siyasi etika, eyni zamnda bir liderlik məsələsidir. Doğru lider, əxlaq və siyasi etika nümunəsi olar və toplumun əsas quruluşu və dəyərlərinin zəifləməsinə səbəb olmaz və başqalarının da zəiflətməsinə icazə verməz. Yalnız özünün doğru bildiyi əxlaqi dəyərlərlə deyil, yayğın şəkildə xalqımız tərəfindən qəbul edilən əxlaqi dəyərlərə də diqqət edib onları siyasi gücə çevirər.

Hər milli fəal, yeni bir həyat və böyük ideallar üçün mücadilə edən, topluma yön verməyə çalışan, insanların baxışlarını, davranışlarını və reaksiyalarını formalaşdırmağa çalışan, ilkəli və inanclı bir insandır. Davasını anlayan, davasına inanan, davasını öz həyatında yaşayan və gücü yetdiyi qədər, davasını başqalarına anlatan, ilkə və əməl sahibi olan, əxlaqlı bir insandır. Güney Azərbaycan milli fəalı, insanların

həyatına təsir edən hər fəaliyyətində, əxlaq çərçivəsində olmalıdır və ümumi əxlaq, siyasi etika və məsuliyyət əxlaqı çərçivəsində fəaliyyət etməlidir. Burada söz qonusu, əxlaq nümunəsi olmaq dəyil, milli hərəkətimizi soru altına aparacaq davranışlardan və millıtimizin inanc və yaşam tərzinə təhqir və hörmətsizlikdən uzaq durmağı qəsd edirik. Çünki hər milli fəal, Güney Azərbaycan və Türklüyün bir bayrağıdır, bayrağımızın ləkələnməsinə icazə verməməlidir. Siyasi etika olaraq vəzifələrin ədalətli və tərəfsiz paylaşımını sağlayıb, öz vəzifələrinə də sədaqətli və tutarlı şəkildə əməl etməlidir. Onunla fərqli düşünən milli fəallara və təşkilatlara alçaldıcı sözlər deməməlidir və iftira atmamalıdır. Başqasını tənqid etmədən öncə özünə baxmalıdır. Etdiyi işlərin və nəticələrinin məsuliyyətini qəbul etməlidir. Eqodan, təkəbbürdən və hırsdan uzaq durmalıdır. Bunu bilməlidir ki, nə qədər çalışqan və milli hərəkətimizə faydalı və önəmli biri olsa da, hırsları, ideallarının önünə keçsə, istər-istəməz, ya ətrafı dağılar, ya da milli fəaliyyətdən geri çəkilmək məcburiyyətində qalar. Elə milli hərəkətimiz də, əsl o zaman zərər görər.

Siyasi fəaliyyətlərin böyük fəlakət və dərdlərə səbəb olma ehtimalı yüksəkdir. Fəaliyyət və eyləmlərimizin, istəməyərək olsa da, səbəb olduğu yanlışlıqlar və dərdlərin məsuliyyətindən qaçma haqqımız yoxdur. Hədəfimizin böyüklüyü və niyyətimizin yaxşı olması, bizə onların nə qiymətə olursa olsun etmə haqqını verməz. Bunun adı sorumluluq əxlaqıdır. Güclənməyə çalışırkən özlüyümüzü, etiklərimizi və ədalət duyğularımızı ayaq altına almamalıyıq. Əxlaq şəxsi bir disiplindir, başqalarını ya da təşkilatımızı öz disiplinsizliğımızdan və yanlışlarımızdan məsul tutmamalıyık.

# Xalqçılıq

Xalqçılıq, xalqın hür iradəsini, demokratiyanın təməl daşı bilib, hər şeyin mərkəzinə almaqdır. Xalqımıza qarşı sorumluluq və vəfa duyğusudur. Xalqımızın maddi və mənəvi varlığını qoruyub gəlişdirməkdir. Xalqın səsini duyub, xalqın dili ilə səslənərək, onların sevgi, güvən və dəstəyini qazanmaqdır. Xalqımızın düşüncələrinə, inanclarına və adət-ənənələrinə hörmətlə yanaşmaqdır. Onlar üçün hər cür fədakarlığa hazır olub, yeri gəldiyində, şəxsi mənfəətlərdən əl çəkməkdir. Xalqımızı Güney Azərbaycan milli hərəkətinə cəlb edib, milli hərəkətdə tutub, bilincləndirib, birliyini və dayanışmasını sağlamakdır.

Keçmiş yüz ildə, Güney Azərbaycanın bir çox aydın və oxumuş insanı, öz millətinə xəyanət edərək, işğalçı İran istismarinin maşası olubdur. Bugün xalqımızın uğradığı zülmlər, ədalətsizliklər və fəlakətlərin bir çoxu, elə onların irqçi İran dövləti ilə iş birliyi nəticəsində başına gəlibdir. Bunun üçün güney Azərbaycan Türklərinin bir çoxu, elita və aydınlara qarşı, hətta onlar üçün malından və canından keçən milli fəallara qarşı, güvənsizdir və qurtuluşuna da ümidini itiribdir. Bu ümidsizlik də, xalqımızın durğunluğuna səbəb olub, böyük hərəkətlər və hücumlar qabiliyyətini azaldıbdır. Güney Azərbaycan milli hərəkəti, doğru planlar ilə, xalqımızın güvənini qazanmalıdır, onlara sahib çıxıb, onların səsi olaraq, yardımsız və dəstəksiz olmadıqlarının güvənini verməlidir. Əzilən xalqımıza, yalnız olmadıqlarını göstərib, arxalarında, dünya səviyyəsində bir siyasi güc və milli hərəkətin olduğunu göstərməlidir.

Xalqımız haqlarını almaq gücünə sahib olduğuna inanmasa, haqlarına necə yetişəcəyini də düşünməz. onlara gücünü anladıb, ümidləndirib və enerjisini milli hərəkətin hədəfi yönündə səfərbər edib sosial gücə çevirməliyik. Xalqımız, Güney Azərbaycan milli hərəkətinin gücünün gerçək qaynağıdır, onu istifadə edə bilməsək itirərik. Bunun üçün, Güney Azərbaycan milli hərəkəti, başdan sona qədər xalqın hərəkəti olmalıdır. Xalqımızın izlədiyi bir hərəkət deyil, oyunçu olduğu bir hərəkət olmalıdır.

Bizim mücadiləmizin kökündə sevgi var. Biz millətimiz sevdiyimiz üçün mücadilə edirik. Bu da şəxsi çıxarlar ya da bağlı olduğumuz təşkilatların çıxarları üçün populisti hərəkətlər edib, insanlarin duyğularını istismar etməklə dəyil, Xalqımızın və gələcək nəslin, çıxarlarını və insani haqlarını qoruyub, onlara xidmət etməklə olar. Bunun üçün hər birimiz bir dövlət adamı kimi, uyğar yaşamın əsası olan insan haqları çərçivəsində, bütün xalqımıza demokratik bir dövlət və şərəfli bir yaşam sağlanması üçün mücadilə etməliyik. Ancaq bunu da bilməliyik ki, heç bir təşkilat və hətta Güney Azərbaycan milli hərəkətinin bütünü, Güney Azərbaycanın bütün xalqını təmsil etmir və əksəriyyətin istəyi ilə hərəkət etmək məcburiyyətində deyil. Əksəriyyətin istəyinə uymaq bir dövlətin vəzifəsidir, bir təşkilat ya da hərəkətin vəzifəsi deyil. Milli dövlət olmayana qədər xalqımızın milli iradəsi ortaya çıxmaz və əksəriyyətin nə istədiyi də bəlli olmaz. Heç bir qurtuluş savaşı, həqiqəti görənlər dışındakı əksəriyyətin oyu ilə qazanılmamışdır. Güney Azərbaycan milli hərəkəti, qurtuluş mücadiləsi verən bir düşüncə axını və hərəkətidir, Güney Azərbaycanın dövləti deyil. Milli hərəkətimiz, xalqımızın içindəki öz tabanının düşüncə və istəklərini təmsil edir. Özünü səmimiyyətlə türk və azərbaycanlı bilən, Türklük və Azərbaycanın mənafeyi və xoşbəxtliyi üçün ürəyi çırpınan və fədakarlığa hazır olan insanlar, bu hərəkətin tabanıdır. Güney Azərbaycan milli hərəkətinin əsas vəzifəsi, öz tabanının istəklərini diqqətə alaraq milli dövlətin qurulması üçün var gücü ilə mücadilə etməkdir. Eyni zamanda doğru strategiyalar və taktikalər ilə, xalqımızın digər bölümünü də, milli hərəkətin düşüncəsinə cəlb edib öz tabanına daxil etməkdir. Vəzifəmiz xalqımızı olmaq istədikləri yerə deyil, olması gərəkən yerə aparmaqdır.

## YENILIKÇILIK

Yenilik, sınırları aşmağın açarı və gələcəyi formalaşdıran gücdür. Addımları cəsarətlə atmaq və yeni üfüqlərə irəliləməkdir. Yenilikçilik rəqabət etmək üçün deyil, oyunun qaydalarını dəyişdirmək üçün çalışmaqdır. Hər kəsin gördüyünü görüb amma kimsənin düşünmədiyini düşünməkdir. Gələcəyi təxmin etmək yerinə, gələcəyi yaratmaqdır. Etdiklərimiz qədər, etmədiklərimizdən də qürur duymaqdır, Minlərcə şeyə yox deməkdir. Düşündüyündən daha böyük düşünməkdir. Hər böhranı bir fürsət bilib, şübhə etmədən və cəsarətlə, yeni bir hücum planı qurmaqdır.

Zaman en böyük yenilikçidir, hər zaman yeni çarələr tapmalıyıq, yoxsa başımıza yeni bəlalar gələr. Dəyişməsək, yenilənməsək, gəncləşməsək, çürüməyə məhkum olarıq. Yenilikçilik, içində olduğumuz vəziyyətə qane olmayıb, daha yeni, inkişaf etmiş və mükəmməli istəyib, yeni yollar və çarələr tapmaqdır. Yenilikçilik insanlara səhv haqqı verməkdir. Səhvlərlə dolu, şərəfli bir mücadilə edən insan, heç bir iş görməyən, ən parlaq düşüncəli insanlardan daha faydalıdır. Güney Azərbaycan milli hərəkəti, xalqımızı daha özgür və rifahlı vəziyyətə gətirmək üçün yenilikçi tədbirləri, cəsarət və özünə güvən ilə birləşdirib, gecə-gündüz demədən milli dövlətimizin qurulması üçün çalışan, milli bir hərəkətdir.

Yaşam gücü olan hər köhnəni sevərik, amma bizi bütün gücü ilə yaşadacaq tək şey yenilikdir. Yeni dövrləri yeni insanlar təmsil edər və yeni bir gün doğarkən bir çox ulduz batar. Heç bir dövr, keçmişdə təcrübə edilmiş insanların çiyinlərində yüksəlməz. Bunun üçün, yeniliyin əsası olan gənclərə, daha çox diqqət etməliyik. Milli hədəfimiz, yəni Güney Azərbaycan milli dövlətini qurmaq yolunda yenilməz gücümüz və təminatımız gənclərdir. Milli hərəkətin zəfəri, etiraz edən yeni nəsil ilə olacaq, itaət edən nəsil ilə deyil. Artıq ehtiyatla İrançılıq düşüncəsinin çıxmaz küçələrində yolunu axtaran və İranın çürümüş hökumətlərində özünə faydalı fürsətlər yaxalamağa çalışan, təmkinli və tərəddüdlü nəsl yoxdur. Onun yerinə, dinamik, qürurlu və özünə güvənli bir Güney Azərbaycan gəncliyi var. Yeni gənclik, öz həyatını yaşamağa və taleyini

öz əllərində tutmağa əzmli və iradəlidir. Güney Azərbaycanın parlaq gələcəyi bu nəslin əlindədir. Qızlarımız milli dövlətimizi, oğlanlarımız isə, milli ordumuzu quracaqlar.

Güney Azərbaycan milli hərəkəti olaraq, öz mədəniyyətimizdə yeniliklərə yer açıb, başqa millətlərin çağdaş və dəyərli yönlərini alıb qaynaşdırmalıyıq. Amma xalqımızı təhqir edərək, ya da bizi bir millət edən köklərimizi kəsərək deyil. Millətlər ulu bir ağac kimidir, ulu bir çinar, torpağın üstündə nə qədər yüksəlmişsə, torpağın altında da o qədər dərinlərə getmiş geniş kökləri vardır. Ulu bir ağacın kökləri kəsilsə o ağacı yaşatmaq və torpağın üstündə dik tutmaq mümkün deyil. Bir millətin kökləri də milli tarixidir, adət-ənənələri və inanclarıdır. Həqiqi yenilik, ancaq geçmişi bilənlərdən çıxar və qaynaqlara dönüşlə başlar. Ən böyük ərdəm, içində olduğumuz vəziyyəti bilib, dəyərləndirib, gücə çevirib, pillə edib daha çağdaş və gəlişmiş bir vəziyyətə daşımaqdır.

## TƏŞKILATÇILIQ

Türkün ən önəmli vasfı təşkilatçılıqdır. Təşkilatçılıq dayanışmanın, səmərəliliyin və başarının açarıdır. Təşkilatçılıq, yolumuzu müəyyənləşdirən və bizi birlikdə hərəkətə keçirib, zəfərə aparan ilkədir. Təşkilat olmaq, eyni dəyərləri paylaşaraq ortaq bir hədəfə kilidlənməkdir. Təşkilat, bəlirli bir nizam ilə qurulmuş qurumsal bir sistem və məsuliyyət-səlahiyyətlərin necə bölüşdürüləcəyini bəlirləyən mexanizmin adıdır. Təşkilatçılığa sərf etdiyimiz hər dəqiqə, bizə bir saat qazandırır. Yəni təşkilatçılıq bir lüks və seçim deyil, həyatda qalma başarısı və bir ehtiyacdır. Artıq pəhləvan və supermenlərin zamanı keçibdir, bu günün şərtlərində, yalnız təşkilat və komanda işi ilə başarı əldə edilə bilər. Hədəfə çatmağın yolu gücdən, gücün yolu isə, təşkilatlanmaqdan keçir. Təşkilatçılıq bizə əzm ilə çalışmanın gücünü verər və nələr bacara biləcəyimizi öyrədər.

Hər təşkilatın, bir ruhu və ağılı olar. Təşkilat ruhu, insanların eqolarını ikinci plana atıb təşkilatın uğuru üçün mücadilə etməkdir. Təşkilat ağılı isə, bilik paylaşımı, iş birliyi və stratejik düşüncədən yaranan kollektiv zəka və qərar vermə qabiliyyətidir. Təşkilatın ağılı təşkilatdakı insanların ağlından daha böyük olar və onun ruhu bizə sonsuz bir xəyal gücü verər. Uğurlu bir hərəkət ilə uğursuz hərəkətlərin fərqi, güc ya da bilik əskikliyində deyil, təşkilat əskikliyindədir. Təşkilat ruhu və dayanışma, az güc ilə böyük işlər görməyin tək və dəyişməz çarəsidir. Təşkilat və dayanışma olmayan yerdə, içdən-içə bir çəkişmə olar.

Bir araya gəlmək başlanğıcdır və bir qrup yaradar. Qrup yoldaşlıq və tanışlıq ilə qurular və daha elastikdir. Ancaq bir arada durub, təşkilatlanıb, məsuliyyət öhdələnib, birlikdə çalışmaq, bir ərdəmdir. Tək başına ya da kiçik qruplar ilə, ancaq kiçik və taktiki başarılara gücümüz yetər. Vətəni qurtarıb, milli dövlət qurub hakimiyyəti ələ keçirmək isə, ancaq sağlam təşkilatlanmaqdan keçir. Təşkilat ruhu, pul ilə satın alınmaz. Pul, insanların işlərini görüb həyatlarını davam etdirmək üçün bir vasitədir amma onları bir təşkilat etmək üçün yetərli deyil. Təşkilat, yalnız üzvlər ilə deyil, onları bir-birinə bağlayan görünməz bağlarla

qurulur. Bu bağları qura bilmək üçün onları həyəcanlandıran bir məqsəd, şəffaf bir nizam və ədalətli bir vəzifə-ixtiyarat sistemi və əmək bağı olmalıdır. Bir təşkilatda bu xüsusiyyətlər olarsa, bütün imkansızlıqlara baxmayaraq uğurlu olar. Çünki belə bir təşkilat ilə çalışdığımızda, daha güclü xüsusiyyətlərə və etkiyə sahib olarıq. Onlar da hədəfə gedən yolumuzu qısaldan ən güclü silahımız olar. Düşmənlərimizin ən qorxduğu şey də, elə doğru təşkilatçılıq sayəsində əldə edəcəyimiz bu silah və gücdür.

Hər Güney Azərbaycan milli fəalı təşkilat qurmağı, olduğu yerdən başlamalıdır. Təşkilat olmaq bir yolçuluqdur, hədəf deyil. Bu yolçuluğa girmək üçün bir vizyona ehtiyacımız var bir də cəsarətə, mükəmməl olmağa ehtiyacımız yoxdur. Haradasınızsa, oradan başlayın, əlinizdə olanları istifadə edin, əlinizdən gələn işi görün. Olduğunuz məktəb, universitet, idarə, məhəllə və şəhərdə, milli düşüncəli insanları tapıb, onlarla əlaqəyə keçib qruplaşıb sonra təşkilatlanın. Təşkilatda məsuliyyət öhdələnməyə könüllü olun və verilən vəzifələri qüsursuz şəkildə yerinə yetirib, təqib edin. Hərəkətimizin varlığı, davamlılığına bağlıdır, Laqeydlik, disiplinsizlik və metodsuzluqdan uzaq olun. Uzaqda xəyal kimi duran bir şeyi görməyə çalışmaq yerinə, önünüzdə açıqca duran işi görün. Sizinlə çalışan milli fəallara güvənin, onlara bir işi necə görəcəklərini anlatmaq yerinə nə iş görəcəklərini anladıb, onların yaradıcılıqlarına fürsət verin.

# STRATEGiYA

## STRATEGIYA NƏDIR?

Strategiya, müəyyən ilkələr ilə məqsədə çatmağın yolunu göstərən şüurlu və bilincli bir yol planıdır. Strategiya bir düşüncə tərzi, qərar vermə şablonu və savaş sənətidir. Gündəlik fəaliyyətlərin üstünə çıxıb, böyük mənzərəni və üfüqdən sonrasını görüb, uzunmüddətli uğur qazanmaqdır. Uzaqdakı şeyləri yaxındaymış kimi görüb, yaxındakına uzaqdan baxmaqdır. Planlamanın başlanğıc nöqtəsidir. Bir hədəfə gedən yolu və planı düşünüb, plana sadiq qalmaqdır. Qazanarkən belə planı kölgədə buraxmamaqdır. Nələr edəcəyimiz qədər nələr etməyəcəyimizi də bilməkdir. Ehtiyac olmayanı ortadan qaldırıb, ehtiyac olana fokuslanmaqdır.

Strategiyasız savaş məğlubiyyətdən öncəki bir gürültüdür. Strategiyası olmayan, düşmənin planının bir parçası olar. Düşmənin planının bir parçası olub, güclənməsinə yol açanın da özü məhv olar. Strategiyada çıxmaza girən bir hərəkəti, heç bir ilkə, taktika və eyləm qurtara bilməz, amma ən güclü strategiya da, özü özünü icra edə bilməz. Hədəfə çatmaq üçün istəyib, inanıb, xəyal edib, tərh töküb, planlayıb və cəsarətlə hərəkətə keçməliyik. Bu dünya bizə düşüncələrimiz qədər deyil, hərəkətimiz qədər verər.

## PLAN VƏ TAKTIKA

Plan və taktikalarımız ümumiyyətlə "Fürsət yarat, Fürsəti yaxala və Fürsəti yönət" formunda olmalıdır. Fürsətlər fərqli şəkillərdə yarana bilər. Bəzən düşmən, bilmədən səhv edib bizə fürsət yarada bilər. Düşmən səhv etdiyində, sözünü kəsməyib, onu bir fürsət kimi dəyərləndirməliyik. Ancaq bunu da bilməliyik ki, ümid bir strategiya deyil, oturub fürsətləri gözləmək olmaz. Əsl fürsətləri özümüz yaradmalıyıq. Bizim hər zaman üçün planlarımız olmalıdır və o planlarımız əsasında, sosial gücümüzə dayanaraq, fürsətlər yaradıb, yönətməliyik. Strategiyada nə qədər gizlilik və diqqət önəmlidirsə, taktikalarda da müşahidə və sürət önəmlidir. Fürsəti yaxaldığımızda sel

kimi axımalıyıq. Planlarımız çevik və uyğunlaşan olsa, həm bir addım məqsədə doğru irəliləyərik, həm də gücümüzü artırarıq. Hər zaman özümüz seçdiyimiz yerdə, öz zamanımızda savaşmaliyiq. Kontrolu hər zaman öz əlimizdə tutub, düşmənin əlinə keçməsinə icazə verməməliyik. Bunun üçün fürsəti dəyərləndirib, aksiyaya keçməyi bildiyimiz kimi, müəyyən qazanclar əldə etdikdən sonra, geri çəkilməyi də bilib, insanlarımızın ən az zərər görməsinə də diqqət etməliyik.

Yalnız milli hökumətimizin qurulması ya da Güney Azərbaycanın bağımsızlığına aparacaq fürsətlər deyil, bizi bir addım irəli aparacaq hər fürsəti dəyərləndirməliyik. Hər fürsətdən planladığımız qədər istifadə etdikdən sonra durub, yeni bir hərəkət planlamalıyıq. Uzaq məsafələrə çatmaq, yaxın məsafələrə getməklə mümkün olar. Yüzlərcə fürsəti doğru yaxalayıb, doğru yönətdikdən sonra, güclənib, milli dövləti qurmağa hazır olacağıq. Yetərincə güclü və hazırlıqlı olsaq, böyük fürsətlir yaxalayıb ya da yaradıb, böyük hərəkətlər başlada bilərik. O zaman, tarixi dəyişikliklər, dünyanın güc dinamiklərindəki dəyişikliklər, savaşlar, gözlənilməz hadisələr, böyük xalq üsyanları və buna bənzər fürsətləri yaxalayıb, əlimizdəki güc və planlarımız ilə, Güney Azərbaycanda idarəçiliyi ələ keçirib, milli hökuməti qura bilərik.

Bütün planlarımızda və taktikalarımızda milli hərəkətimizin tabanı yəni sosial bazasının qorunmasına da diqqət etməliyik. Bir hərəkətin tabanı, onu təmsil edən siyasi elita və təşkilatlar tərəfindən dəstəklənib, sahib çıxılmazsa, o hərəkət və taban kütləyə, başqaları sahib çıxar və öz istədikləri istiqamətdə yönləndirər. Bütün fəaliyyətlərimizdə, türk dilində və Azərbaycan ilə əlaqəli çıxışlar və şüarlarımız olmalıdır. Milli hərəkəti əks etdirən simvollar və bayraqları önə çıxarmalıyıq. Millətimizin hərəkət və aksiyalarına sahib çıxıb, zəfərlərini (nə qədər kiçik olursa olsun) qeyd edib qutlamalıyıq.

## Mücadilə Strategəyası

Strategiyalar və planlar, əsasən gizli olar və açıq şəkildə bəyan etməyə ehtiyac yoxdur. Hər milli təşkilat və qrup, öz imkanları çərçivəsində

özünə məxsus strategiyasını planlayıb, öz strategiyası əsasında hərəkətə keçər. Ancaq burada Güney Azərbaycanın sosiyal quruluşu və zamanın şərtlərinə uyğun, ümumi bir strategiyadan söz edirik.

Güney Azərbaycan xalqı ancaq böyük bir üsyanla, Güney Azərbaycanda idarəni öz əlinə keçirib milli dövlətini qura bilər. Bu hədəfə çatmaq üçün yəni böyük xalq üsyanını başladıb, Güney Azərbaycan milli dövlətini qurmaq üçün, güclənməliyik və gücümüzün qaynağı da millətimiz yəni Güney Azərbaycan türkləridir. Yalnız bu potensial gücü hərəkətə keçirərək, milli dövlətimizi qurub, hədəfimizə çata bilərik. Bunun üçün hədəfimiz və ilkələrimiz doğrultusunda xalqımızı sosial, siyasi və lazım olarsa hərbi gücə çevirməliyik. Xalqımızın bütün kəsimlərini, qız-oğlan, oxumuş-oxumamış, varlı-yoxsul, dindar-layik, yaşlı-cavan və s. demədən oyandırıb, səfərbər edib, böyük üsyana hazırlamalıyıq.

Güney Azərbaycan milli hərəkəti bu günə qədər ümumiyyətlə oyanış hərəkəti şəklində mücadilə edibdir. Oyanış mərhələsi nəticəsində bugün millətimizin çoxunluğu oyanıb, türklüyünün fərqində olub və öz kimliyini sevməyə və müdafiə etməyə başlayıbdır. Bundan sonra, oyanış hərəkətinin davamı ilə bərabər, səfərbərlik mərhələsi də sürətlənməlidir. Güclü şəbəkələr, təməl təşkilatlanma və qurumsallaşmaq bu mərhələnin ən əsas vəzifəsidir. Milli fəalların iştirakı və idarəsi ilə xalqımızın fərqli kəsimlərində, gizli ya da qanuni qruplar və təşkilatlar olmalıdır. Peşə, mədəni, siyasi, ekoloji və s. quruluşlar, milli fəalların yardımı ilə yaradılmalıdır ya da milli fəalların təsiri altına keçməlidir. Mitinqlər, etirazlar, oturaq aksiyalar, mədəni proqramlar və digər fəaliyyətlərlə, həm şəbəkələrimizi genişləndirməliyik, həm xalqımızı böyük üsyana hazırlamalıyıq, həm də İranın Güney Azərbaycandakı gücünü tükətməliyik.

Strategiyanın icrası və uğuru üçün doğru politikalar müəyyənləşməlidir. Stratejik plitikalar, planlarımızın və taktikalərimizin uğur ölçüsü və şablonudur. Planlarımız, nə qədər politikalarımız doğrultusunda

irəliləməyə səbəb olmuşsa o qədər uğurlu sayılar. Güney Azərbaycan milli hərəkətinin bəzi önəmli stratejik politikaları bunlardır:

1. **Milləti siyasiləşdir və hərəkətə keçir**
   İran hökumətləri bilincli olaraq xalqımıza siyasətin faydasız və təhlükəli olduğunu təlqin edib, onları passivləşdirməyə çalışır. Bunun üçün, milli hərəkətimizin əsas strategiyalarından biri milləti aktiv siyasətə və siyasi fəaliyyətə çəkməkdir. Millətin qəlbini və zehnini qazanıb, onları hərəkətin fəalları və yaradanları etməliyik. Taktikalarımız nə qədər xalqımızı siyasiləşdirib, milli mücadiləyə cəlb edib, hərəkətə keçirirsə, o qədər uğurlu sayılar.

2. **İrancılığın ideoloji nüfuzunu çürüt**
   "İranda yaşayan xalqlar bir millətdir, ortaq taleyi var və ortaq dili farscadır" bu cümlə, irançılıq teorisinin əsasını təşkil edir. Bu yanlış teori, Güney Azərbaycanın istismar olunması və müstəmləkə kimi qalmasının əsas səbəbidir. Millətimiz bu teoriyə inandığı müddətcə, hərəkətə keçməz və öz taleyini öz əlinə almaz. Bunun üçün bu teorinin yanlış olduğunu xalqımıza göstərib, çürüdüb, yox etməliyik. Fərqli taktikalarla Güney Azərbaycanın fərqli millət olduğunu, İranın başqa xalqları ilə eyni çıxarları və taleyi olmadığını, hətta rasist İran dövlətinin Türk düşməni olduğunu və millətimizin fars dilinə deyil, öz türk dili və mədəniyyətinə bağlı olduğunu göstərib hər kəsi inandırmalıyıq. Fəallarımız da bu teorinin doğrultusunda qurulmuş fəaliyyət və birliklərdən uzaq durmalıdır.

3. **İranın otoritesini Güney Azərbaycanda zəiflə**
   İstismarçı dövlətlər müstəmləkələrini, yerli insanların yardımı ilə idarə edərlər. Bunun üçün, istismarçının təbliğatına inanmış, onu güclü və ədalətli bilən yerli insanları seçib, onların vasitəsilə otoritelerini təmin edərlər. Hər başarılı milli hərəkətin ən önəmli strategiyalarından biri, özündən olan amma düşmənə çalışan övladlarının üzərində düşmənin hakimiyyətini zəiflətmək və milli hərəkətinə cəlb etmək, ya da ən azından istismarçıya olan bağlılığını və itaətini azaltmaqdır. İranın dövlət orqanlarında çalışan, Güney Azərbaycanlı bürokratlar, işçilər, müəllimlər, idarəçilər, polislər, sepahilər, əsgərlər, hakimlər, kəşfiyyat məmurları və başqalarında, nə qədər İran bağı azalıb, milli

düşüncə çoxalsa, İranın Güney Azərbaycanı idarə etmə qabiliyyəti o qədər azalacaq və otoritesi də o qədər zəifləyəcək.

4. **Diplomatiya ilə hərəkətinə qanunilik və dəstək qazan**
Milli hərəkətimizin qanuniliyi, rəsmiyyətə tanınması və önünün açılmasına çalışmalıyıq. Bunun üçün xarici ölkələr, beynəlxalq təşkilatlar və insan haqlarını müdafiə edən qruplarla əlaqəyə keçməliyik. Lobbiçilik, kampaniyalar, mətbuat bülletenləri, media reportajları və sosial media dalğaları ilə, beynəlxalq alqını Güney Azərbaycan xeyrinə formalaşdırmalıyıq. Güney Azərbaycanda insan haqları ihlali və başqa cinayətlər ilə əlaqəli, beynəlxalq məhkəmələrə və qurumlara müraciət etməliyik. Və s.

## 5. Məjazi dünyada hakimiyyəti qur

Sosial media və məjazi dünya, dövlətlərin hakimiyyəti altında olmayan tək mühitdir. Bu gün insanların əlaqəsi, bilgi paylaşımı və sosiallaşmasının çoxu bu ortamda olur. Sosial media və məjazi dünya, ən böyük avantajımız olmalıdır. Xalqımızın içərik ehtiyacları, milli hərəkətin kanallarında təmin edilməlidir. Sosial media şəbəkələri ilə xalqımızı şəbəkələndirib, təşkilatlandırmalıyıq. Güney Azərbaycanda gündəm, milli hərəkətin kanalları ilə idarə olunmalıdır.